# Postmodernist olmaq xülyadır

*Cavanşir Yusifli: "Tənqidçinin birinci məqsədi ədəbi prosesin arzusunu, niyyətini dərindən duymaq və onu ifadə etməkdir"*



**- Bəzən deyirlər ki, ədəbi tənqiddə meyarsızlıq sindromu var, ədəbi tənqiddə meyarlar itib və s. Sizcə, ədəbi tənqiddən umulan meyar nədir?**

- Əslində, sadə görünən, amma mürəkkəb bir sualdır. Hər bir ədəbiyyat adamı bu suala öz yaradıcılığı ilə cavab verir. Elə şeylər var ki, onları əvvəlcədən bəyan edirsən, amma yaradıcılığınla buna əməl etmirsən, yaxud edə bilmirsən. Qaçılmaz bir ziddiyyət yaranır. Bəzən biz deyirik ki, ədəbiyyat o şeydir ki, bizim içimizdə yaşadığımız gerçəkliyi və dünyanı ötüb keçir, yəni bunun niyyətində, məğzində belə bir şey var. Əks təqdirdə, sən istədiyin həqiqətlərin dibinə qədər gedə bilməzsən. Səthdə sürüşən şeylərlə daha çox məşğul olarsan. Niyyətdə olan şey gerçəkləşməyəndə, kənar marşrutlarda gəzib-dolanır, hər dəfə yeni cəbhə açmalı olursan. Tədqiqatçılardan birinin özü haqqında yazdığı "filoloji roman"da belə bir qeydə rast gəldim, özü-özünə sual verirdi: tarixən Furye böyük əhəmiyyət daşıyır, yoxsa Flober? Furyenin yaradıcılığında praktiki olaraq müasiri olduğu qasırğalı dövrün hadisələrinin birbaşa izi yoxdur. Flobersə 1848-ci il hadisələrinə bir sıra hekayə və roman həsr edib. Ancaq nə olur-olsun, Furye Floberdən daha önəmlidir: tarixin arzusu onun yaradıcılığında dolayı yolla ifadə olunur və məhz buna görə o, eyni zamanda həm tarixi, həm də müasirdir: tarixin arzusundan doğulan tarixçi. Çox mürəkkəb və qəliz hadisələr onun yaradıcılığının alt qatından keçib gedir və yeni paradiqma yaradırdı. Beləliklə, bədii mətndə görünməyən şey özündən vaz keçib başqa mühüm gerçəkləri fokus nöqtəsinə gətirə bilir. Yəni, ürəyini çıxarıb deyə bilməzsən: niyyətim budur! Tənqidçinin də birinci məqsədi ədəbi prosesin arzusunu, niyyətini dərindən duymaq və onu ifadə etməkdir. Ədəbiyyat tarixçisi üçün faktlar, ardıcıllıq və sair bu kimi məlumatlar çox vacibdir, ancaq o, ədəbiyyat tarixinin fəlsəfəsini dərk etməzsə, ölkədə hər ədəbiyyatşünas bir ədəbiyyat tarixi yazar, bizdə olduğu kimi. Yəni, dediyimiz cəhət - faktor dərk edilməyəndə, eninə inkişaf sənin bütün arzularını əvəz edir. Bir dəfə bir iclasında idik. Dəqiq elmlər sahəsində çox hörmətli bir alim qəfil sual verdi: bizdə niyə Baxtin yoxdur? Bir anlıq çaşdıq, axtardıq, amma gördük ki, doğrudan yoxdur. Yaxud indi haray çəkirlər ki, niyə bizdə Tolstoy, Çexov yoxdur? Amma gəlin toxtaq olaq, həmin sualı verən adama zəndlə baxaq və deyək, bizdə sən varsan... Ancaq onlarda bu yoxdur. Sarkazm deyil bu, vəziyyətimizdir. Siz bu gün bu sualı verənə qədər görün nə qədər sular axıb, gələcəyinə ümidlər bəslənən filoloqların neçəsi deqradasiyaya uğrayıb və əslində antiədəbiyyatın alətinə çevriliblər.

Minlərlə insan ola bilər ki, sənə "bunu yaz" desin, amma yazmaya, vaz keçə bilərsən. Nəticə etibarilə daha böyük uğur əldə etmiş olarsan. Təkcə faktlar səviyyəsində yanaşılanda insanlardan birbaşa rəy, qiymət tələb edirlər. Qəti sual kimi: yaxşıdır, ya pis? Kiminsə gözündə obyektiv görünə bilərsən, kimsə ədalətsiz adlandırar səni. Olsun. Susmaq üçün yer həmişə var. Bəlkə burda qiymətləndirməni bir az arxa plana keçirmək lazımdır. Tutaq ki, bizim haqqında yazdığımız gerçəklik var və o gerçəklik nələrdəsə görünür. Elə tənqidçi var ki, heç nəyin üstündən keçmir, faktları bir-bir qeyd edib oxucuya hər şeyi yerbəyer çatdırmaq istəyir. Yazıçılar, şairlər də var ki, anı dayandırmaqla məşğuldurlar. Tarix, gerçəklik burada salnamə şəklində yox, fraqmentlər şəklində əks olunur. Sən bütün zamanla, gerçəkliklə bacara bilməzsən, bəzən fraqmentin içində, belə bir "zahiri rabitəsizlikdə" daha böyük bir məntiq olur ki, tənqidçi, ədəbiyyatçı bunu dərindən duyub, verə bilir.

**- Biz hansısa ədəbi dövrə baxanda o dövrün əsərlərini ona görə sevmirik ki, onlar haqqında hansı tənqidçilər yazıb. Sizcə, əsas əsərin özü deyil?**

- Ədiblər haqqında yazmaq zaman məsələsidir. Zaman-zaman yazılanların içində itib batanlar da çox olur. Ədəbi faktlara nəzər salsaq, tutaq ki, XVIII əsrdə biz daha çox Molla Pənah Vaqifi görürük, daha çox ondan yazırıq. Amma XVIII əsr təkcə ondanmı ibarətdir? Burada ədəbi prosesin gedişində kimin necə ortalığa çıxması məsələsi də var. 30-cu illərdən günümüzə qədər yazılan tənqidlər nə dərəcədə dəyərli və qiymətlidir? Yaxud o əsərlər... O dövrün hansı bədii mətnlərini dönə-dönə oxuyursunuz? Həm də, bizdə bəzən bir mövzuya elə sürəkli müraciət, axın olur ki, mövzu aradan qalxır, kitablardan heykəl yapılır. Sürəklə ucalıb yıxılan heykəl obrazını təsəvvür edin. Beləliklə, həmin müəllif dövründən, zamanından, həm də mənsub olduğu ədəbi prosesdən qoparılıb əlahiddələşdirilir, halbuki buna zərrəcə ehtiyac yoxdur. Burda ikili proses gedir. Mirzə Fətəli təkcə öz dövrünü yox, özündən əvvəlki və sonrakı dövrü də toxuya-toxuya, aşkarlaya-aşkarlaya gedir, müəyyən məhvumlara toxunur, onların izahını verirdi. Yəni böyük ədəbi, ictimai, fəlsəfi hadisə eyni zamanda həm keçmişə, həm də gələcəyə təsir edir. Bir də var Axundov haqqında yazmaq. Onu Almaniyada da tədqiq edirlər. Çox möhtərəm Qafqazşünaslar var, elə məsələləri açıqlayıblar ki, bəlkə də bizim mütəxəssislər bunu bilmirlər. Bu, zamanla baş verən bir hadisədir. Mənim bir aspirant yoldaşım vardı, Qoldşteyn. "Kəmalüddövlə məktubları"ndan yazmışdı. Məqalələri "Voprosı literaturı" jurnalında çıxırdı. Həmin dövrdə, elə indi də Axundovun mühiti öyrənilir, ancaq rəhmətlik Qoldşteynin (sonradan İsrailə köçdü, məşhur yazıçı oldu, önəmli ədəbi mükafatlar aldı) və digərlərinin "ağır" əsəri ilə bu tədqiqatlar heç bir nöqtədə birləşmir. Problem budur.

Bir də baxırsan ki, elə bir tədqiqatçı yetişib ki, o əsərlərlə, müəlliflə yanbayan dayana bilir, bu yaxınlarda bir müsahibə oxudum, Musa Yaqubun öz dilindən. Deyir ki, yaxşı yazı müəlliflə tən yarıdır. Əgər bir əsər tərcümə edirsənsə, onu müəlliflə şərik edirsən. Bu isə səlahiyyətdir, onu qazanmağa ömür lazımdır.

**- Sizcə, bugünkü ədəbi prosesə nəzərən, gələcəkdə ədəbi prosesdə ədəbi tənqidə münasibət necə olacaq?**

- Qəribə sualdır. Bir müşahidə: klassik ədəbiyyatı oxuyanda fikir verirsən ki, sən bir məna mexanizminin içindəsən, get-gedə nəfəs dərmədən mənaların yaranmasının şahidi olursan, elə bil ki, həmin əsərlər sənin olub, yəni sən yazmısan onları. İlk baxışdan. Qarşında həmişə çatmaq, qapısını açıb daxil olmaq istədiyin bir dünya var. Bu mətnlər sənə dünyanı yenidən tanıdır, özgələşdirir, keçmişin bu şəkildə müasirləşməsi insanın daxilində dərin təbəddülat yaradır. Sən dünyanı qat-qat metaforaların, epitetlərin, dünyaya tuşlanan sualların gözündən görürsən ki, bu da müasir gerçəkliyə, ümumilikdə dünyaya qarşı bir oppozisiya yaradır. Oradan üzü bəri gəlincə, görürsən ki, sərin küləklər əsir, həmin mənalar, yoxa çıxır. Bu günün mətnlərində, əsər də bəlkə o mənalardan qaçmaq qurtulmaq məqsədi ilə yaradılır, hardasa məna yaratmaq yox, onun effektini istehsal etmək prosesi gedir. Bizdə şeir anlayışında bir parodiyaçılıq var. Bir var ədəbi təsir, bu başqa məsələdir, bir də var, dəstə-dəstə adam filankəs kimi yazır. Həmin o "filankəsi" də axtarırsan, tapmırsan. Elə bir şey var ki, sən onu hiss edirsən, amma dilə gətirə bilmirsən. Şeirdə pərdə arxasından, kadr arxasından gələn səs kimi yazıçının səsini, "mən"ini duymalısan. Həqiqi şeiri oxuyanda da bir oxucu kimi o hiss sənə hakim kəsilir. Yanında olan şeylə səndən uzaqdakı müəyyən mənada ifadə olunur. Çünki bu iki nəsnə sən bilsən də, bilməsən də artıq müəyyən münasibətdədirlər, həm də daha çox çarpaz şəkildə. Onu bir başqa formada ifadə edə bilmirsən. Dinlədiyin səsdə, nitqdə elə bir xassə var ki, özünü sənə göstərmək istəyir, yəni görüntüyə çevrilmək istəyir. Bəzən öz nitqini dinləyən insanlar bunu bilirlər. Bədii mətndə ritm və obrazlar buna görədir. Ancaq ritm qırıq olanda, obrazlar "yapışmayanda" görüntü də pozulur, televizor ekranında olduğu kimi. İndi sosial şəbəkə var, ona uyğun da şairləri və tənqidçiləri var. Üzlə astarın görüş yeri, bərabərlik məqamı. Səth elə dərinlikdir. Bir də görürsən tənqidçi müasir dövrün şairindən misralar paylaşır, "bəh-bəh janrı"nda. Yuxarıda niyyət məsələsindən danışdıq. Hamı ona bağlıdır, etiraf eləsə də, eləməsə də. Tənqidçilərdən biri yazırdı ki, filan-filan keyfiyyətlərinə görə inanırsan ki, müəllif qələmi təsadüfən əlinə almayıb. Yəni, tutaq ki, filan yazı, hamı görür ki, zəifdir, ancaq insanlar özlərindən yeni meyarlar icad edib dastanlar yazırlar. Nəticədə yuxarıdakı kimi gülməli situasiyalar yaranır. Ömrün yarısında qəsdən vicdansızlıq edib, qalan yarısını (bəlkə o heç olmayacaq?!) vicdanla yaşamaq niyyət deyil ki, saxtakarlıqdır.

**- Sizin yazılarınızda Rolan Bartdan sitatlar çox olur. Bu ədəbi tənqidçini, ədəbiyyat adamını sizə sevdirən hansı cəhətləridir? Sizə qədər ona çox üstünlük verilmirdi.**

- Təkcə Rolan Bartdan yox, oxuyub tanıdığım bütün ciddi filoloqlardan. Ədəbi tənqiddə hər kəsin öz yeri var. Mən R.Bartı 80-ci illərdə tanımışam, institutda oxuyanda. Onu istər öz dilində, istərsə də rus dilində anlamaq, oxumaq çətindir. Hər bir yazılmış əsərin öz dili olur. Hər bir şeirin də içində başqa dillər var. Tənqid də yanaşdığı mətnlərlə münasibətdə metadildir. R.Bartdan ilk tərcümə elədiyim "Tənqid nədir?" məqaləsi "Ulduz" jurnalında çap edilib. Jurnalda tənqid şöbəsində bir nəfər işləyirdi, dedi ki, mənim də haqqımda belə yazmaq lazımdır.

Onun bir çox əsərini tərcümə etmişəm, tələbəlik illərindən başlayaraq. Təkcə tənqidçi, ədəbiyyatşünas yox, həm də filosofdur. "Yazının sıfır həddi" onun ən fundamental əsərlərindən biridir.

Davamı səhifə 17-də

*(Əvvəli səhifə 16-da)*

# Postmodernist olmaq xülyadır

## *Cavanşir Yusifli: "Tənqidçinin birinci məqsədi ədəbi prosesin arzusunu, niyyətini dərindən duymaq və onu ifadə etməkdir".*

1959-cu ildə yazdığı bir əsərdir. "Hakimiyyət", "Müəllifin ölümü" və başqa əsərləri də var. Zaman-zaman bu tipli əsərləri ona görə tərcümə edirəm ki, bəzən araşdırmalar bədii əsərdən heç də az zövq vermir. Onları oxuyub ədəbi mətnlərlə kəsişmə nöqtələrini axtarırsan.

Sual verirsiniz ki, tənqidin sabahı necə olacaq? Kimdənsə öc almaq yoxdur, olsa da zaman onları yuyub aparıb. Normal düşüncəyə meydan var. Bir insanı istismar edirsən, sonrada baxırsan ki, ədəbi proses heç nə qazanmadı.

**- Müasir dövrdə bir insan 2-3 aya tənqidçi ünvanı qazana bilir. Buna münasibətiniz necədir?**

- O bir az mürəkkəb məsələdir. Proses kimi yox, onu anlamaq mənasında çətin məsələdir. Elə bir adam tanımıram 2-3 aya tənqidçi namı qazansın. Axı o qədər də əlverişli deyil, ən sərfəlisi az vaxtda böyük yazıçı kimi tanınmaqdı. Sonra mükafatlar-filan. Hər bir prosesin içində özünü təmizləmə, xilas olma prosesləri var. Təqribən bu şəkildə bunu izah edək. Onun məzmunundan danışmağa məcbur olurlar. Bəzən oxucular əsər haqqında bizdən daha yaxşı danışırlar. Oxucular bir situasiyanı dəyərləndirmək üçün sənə müəyyən mənbələrdən daha çox material verirlər. Əsl şair daha çox bilmədiklərini yazmağa səy göstərir. Bu şüurlu bir şey olmur, əslində, yazı prosesində rasionallıqla irrasionallıq qoşa addımlayır. Bəzi şeyləri nə qədər aydın görürsənsə, bəzilərini də bir qədər zülmətdə görürsən. Tənqidi məqalələrdə də insan gərək dil, kompozisiyanı hiss eləsin. Musa Yaqubdan misal gətirmək istəyirəm. Müsahibələrinin birində Saib Təbrizidən nümunə gətirir.

*Bir qədəh badə ilə könlümü açmaq dilədim,*
*Bilmədim ki, açılmazdır düyün islansa əgər*

Yəni istədim ki, badə ilə könlümü açım, daha bilmədim ki, badə ilə düyün açılmır, daha demir ki, könlüm düyün bağlayıb. Bu da çox güclü müşahidədən doğub. Saibin 6 yaşı olanda anası deyir ki, get buzovu aç gəlsin anasının altına, gedir, yer şeh, çomağı islanıb, islaq düyünü aça bilmir. 40 yaşında yada düşür ki, o düyün açılmadı axı.

Bunu hər bir adam başa düşə bilər, amma həqiqi mənada hiss eləmək, onun hər bir hüceyrəsini özündə hiss eləməkdir. Rolan Bart yazır ki, ədəbiyyatda əsas məqsəd reallığa toxunmaqdır, amma biz nə etsək də real fakta toxunmaq qeyri-mümkündür. Əsl şair bunu hiss edir, bunu bilir ki, onu yalnız kənardan tamaşa edə bilirsən, rəsmini cızırsan. Belə olan halda, tənqidçi ideyalardan bol-bol danışmaq yerinə, başqa üsul və metodlar seçməlidir. Tolstoya "Anna Karenina" ilə bağlı "bunun ideyası nədir?" sualı veriləndə deyir ki, mən bu suala cavab vermək üçün gərək romanı təzədən yazım. Artıq Tolstoyun sualına cavab verəcək əsər mövcuddur. Ona görə də hər tənqidçi tənqidçi deyil, hər ədəbiyyatşünas ədəbiyyatçı deyil. Ədəbiyyat tarixləri var. Sovet dövründən yazıla-yazıla gedir, amma uğurlu alınmır. Cildlər çoxalır, amma ədəbiyyatın, ədəbi prosesin öz niyyəti nəzərə alınmır. Sadəcə, faktlar sadalanır, lakin bu ədəbiyyatın niyə yaranması, bizə nələri deməsi açılmır. Bütün bunlar nələr yaratdı. Əslində, mühit necədirsə, axar da o cür olur. Bu prosesin qarşısını biz ala bilmərik axı. Hayla gələn vayla gedər. O məsələlər də elə belə deyil. 3 günə məşhur olan insan 30 il davam gətirə bilər, amma "düyün açılmır axı". Bu başqa insanlara ziyan verir. Bunu düzəltmək və idarə eləmək qeyri-mümkündür. Təkcə çıxış yolu ondadır ki, ağıllı adam öz işi ilə məşğul olsun.

**- Müasir dövrdə tənqidçilər bədii əsərlərdən çox, bir-birlərini tənqid edirlər? Buna münasibətiniz necədir?**

- Bunun klassik nümunəsi Axundzadənin tənqidə aid məqalələrində var. Bu, çox adi həqiqətlərdir. Amma insan bu çərçivələrdən yalnız mərifət olmayanda kənara çıxır. Mərifət ixtisasdan, peşədən əvvəldə olandır. Yəni, mərifət hər şeyin başında olmalıdır. Mərifət təkcə tərbiyəli olmaqda deyil, həm də başqalarının fikirlərinə tolerant yanaşmaqdadır. Çox danışan, adamlar əslində, çox qorxaq adamlardır. Çox oxuyan insanlar isə adətən, susmağı üstün tuturlar. Ümumiyyətlə, bizim dövrdə kəmiyyət keyfiyyəti yeyib axırına çıxmaqdadır. İnsan 5 yaşında, 15 yaşında özünü göstərməyə çalışırsa, bu, təbiidir, amma 50 yaşında buna cəhd edirsə, artıq gülməlidir. Kənardan baxanda çox pis mənzərə yaranır.

**- Bizim ədəbiyyatda postmodernizm nəzəri cəhətdən daha yaxşı öz inkişafını tapdı, nəinki, bədii əsərlərdə. Sizcə, bu nə ilə bağlıdır?**

- Nəzəri baxımdan nələr oldu ki? Əvvəlcə tərcümələr, sonra yazılar. "Cahan" jurnalını yada salın. Orda nə qədər önəmli və ciddi yazılar getmişdi. Özü də təkcə modernizm, postmodernizm, ekspressionizm, ekzistensializm... haqqında yox. Məsələn, Liotarın məqaləsi tərcümə edilmişdi. Jak Derridanın məqaləsi. Habermas, müasir tənqid nəzəriyyələri, həm də müasir ədəbi proses... Amma sonra nə oldu?

Müasir dünyadan təcrid olunmanın səbəbləri məlumdur. Müəyyən bir dövr Sovet hakimiyyəti bizi dünya ədəbi prosesinin mühüm hadisələrindən kənarda qoydu. 60-cı illərdən sonra ədəbiyyatımızda müəyyən spesifik xüsusiyyətlər görünməyə başladı. Məsələn, Rəsul Rzanın, Əli Kərimin yaradıcılığı və s. Daha sonra 70-ci illərin sükutu, 80-ci illərin süstlüyü və.s bu proses davam etdirdi. Və nəhayət 90-cı illərdə artıq gördük ki, qatar çoxdan keçib. Məsələn, Saday Budaqlının əsərlərinə baxanda görürük ki, orada Prustdan gəlmə nəsə var. Çünki dünya ədəbiyyatı bir ovucun içindədir. İndiki əsərlərin çoxunu postmodernizmə aid edirlər, mən bunu iki cəhətdən təhlil edirəm. Birincisi, ekzotikaya meylilik, ikincisi həmin əsərlərin ədəbiyyat olmaması. Bu yaxınlarda bir müsahibədə demişdim ki, indiki yazarların uğursuz olmalarının səbəbi ondadır ki, qəlbən yazmaq istədikləri mövzunu yazmaq istəmirlər. Fikirləşirlər ki, onlara deyərlər ki, bu əsər postmodern deyil. Postmodernist olmaq əslində, bir xülyadır. Yazan adam nəsə yaratmaq barədə düşünmür. Məsələn, bir yazardan yazıçı kimi yazmaq daha düzgündür. Çünki bu zaman bir çox xüsusiyyətdən və keyfiyyətdən yazmaq mümkündür. Bir də var postmodernizmin prinsiplərini, xüsusiyyətlərini kor-koranə şəkildə hansısa əsərə tətbiq edirsən. Bu artıq postmodernizm haqqında məhəlli söhbətlər olur. Çünki o söhbətlərin əsası artıq bitib. Bir də var sən mütəxəssis kimi bir detalı götürüb onu təhlil edirsən. Amma tənqidçinin "izmlər" xəstəliyinə tutulması ona işləməyə imkan vermir. Əvvəllər, hardasa keçən əsrin 90-cı illərində bizdə "irfanoloqlar" vardısa, indi onlar öz yerini "izmoloqlara" veriblər.

Amma bir önəmli məsələ də var, filoloqlardan biri yazırdı: mən yazıram - bu, dilin birinci pilləsidir. Sonra, mən yazıram ki, yazıram (yəni nələrsə yazdığımı bildirirəm) - bu isə dilin ikinci pilləsidir. Belə də ola bilər: nə isə yazmaq istədim, sürüşüb getdi, yaza bilmədim. Bu gün biz dilin bu ikinci pilləsindən daha çox istifadə edirik, bol-bol. Biz indi bu işarələrdə ilişib qalmışıq. Az qala hər bir sözün altında açılan dibsiz yarğan əslində, yaza bilməməyimizin sübutudur. Yazıram ki, yazıram... Deyirəm ki, mən postmodernistəm, sufiyəm... Hər bir yazı, bu bacarıqsızlığın sübutudur. Dibində yarğan olan hər sözün yanından ayağını bir balaca kənara qoysan, dünya dəyişər...

**- Şair şeirdə, yazdığı əsərdə yenilik edir. Tənqidçi nə yenilik etməlidir bəs?**

- Əlbəttə, ümumiyyətlə, istənilən sahədə yenilik etməsən, inkişafdan qalır Ümumiyyətlə, insan bir mətn yaratmaq istəyəndə əvvəldə yığdığı bütün biliklər ona mane olmamalıdır. Yazar oxuduğu bütün mətnlərdən ayrılmalı, müvəqqəti vaz keçməlidir ki, orijinal mətn yarada bilsin.

**- Ədəbi mühitin özəyini adətən, romanlar, şeirlər təşkil etməlidir. Amma bizdə gözləyirlər ki, bunu ədəbi tənqid formalaşdırsın. Buna münasibətiniz necədir?**

- Bu daha çox müasir ədəbi proseslə bağlı məsələdir. Müasir dövrdə ədəbi tənqid özü şairlərin dalınca sürünür. Yazarlar da tənqidçilərin arxasınca sürünürlər. Yəni, karusel. Bu da xoşagəlməz meyillər yaradır. Həm də mən sağlam mühitin yaranacağını da gözləmirəm. Yəni, bunun işartıları yoxdur. Mən düşünürəm ki, ona görə ədəbi mühitin özəyini şeirlər, romanlar təşkil etmir ki, həmin əsərlərlə onlar haqqında yazan adamlar arasında anlaşma nöqtəsi yoxdur. Sadəcə, bizim dövrdə hər şey tənqiddən asılı qalıb. Sual verəndə ki, tənqid özü nədən asılı qalıb? Cavab vermək çətin olur. Bir analogiya: hansısa müəllif bir komediya yazır, əsər "Azdrama"da tamaşaya qoyulacaq və qabaqcadan filan personajı deyək ki, Yaşar Nuri, yaxud Səyavuş Aslan üçün nəzərdə tuturdu. İndi o proses gedir, bir tip əsərlər var, yalnız müəyyən tənqidçilərə ünvanlanır. Mən komediya, gülüş sahəsində araşdırma aparmışam, amma o biliklər köhnəlib.

**- 20 il əvvəlin şeirlərinə fikir versək görərik ki, şeir başlayandan sonra ortasında və ya sonunda mənaya gəlib çatardıq. Amma indiki şeirlər sanki mənadan başlayır. Bununla bağlı fikirləriniz necədir?**

- İstisnasız olaraq bütün şeirlərin içində o mətn uğurludur ki, onun daxilində məna savaşı gedir. Və dərhal başlayır, haradansa start götürmür. Ona görə də yazan adam kadr arxasından gələn səsləri tutmaqla məşğuldur. Amma deyirsiniz ki, mənaya şeirin ortasında, ya sonunda rast gəlirsən. Nə bilirsiniz? Bəlkə o heç məna deyil?

**- Bir detal da var ki, şeirlərdə sanki antitezalar daha çox müşayiət olunur... Bu tipli şeirlər maraq doğurur, şairlər də daha çox belə ifadələrlə özlərini ifadə etməyə çalışırlar.**

- Bu poeziya deyil, "facebook" obrazlarıdır. Sosial şəbəkə obrazlarıdır. Əgər bir mətndəki mövzunu götürüb onun mətnlərarası əlaqəsini araşdırsaq görərik ki, hansı şairin daha yaxşı yazması məsələsi kölgədə qalacaq. Çünki prosesin dərinliklərinə enəndə artıq kimin yaxşı yazdığı maraqlı olmur. Şeir insanın bütün illər boyu dediklərindən, öyrəndiklərindən imtina etməklə başlayır. İmtina eləməlisən ki, nə isə yarada biləsən. O antitezalardan da nəsə yarana bilər. Sadəcə, standartlardan əl çəkmək lazımdır. Həm də bəyənmədiyin yolu, üslubu dərinliklərinə qədər bilməlisən, ora gedib qayıtmalısan. Ancaq bizdə bu yoxdur. Ömründə bir dəfə qəraylı oxumayan, Mirzə Cəlili bilməyən adam bir də görürsən Coysdan mühazirələr deyir. İndi gəl, dinlə. Ancaq bəzən çox önəm verdiyimiz, ağrı dozasını artırdığımız problemlər zaman keçdikcə, görürsən ki, heç nə imiş. Yəni, əslində, diqqət başqa məsələlərə yönəldilməli imiş. Həm də elə şəkildə ki, gözümüzü alacalandıran qüsur və kəm-kəsirlər də orada olsa-olsa çaylaq daşına bənzəsin...

**Söhbətləşdi:**
**Fərid Hüseyn,**
**Cahan Seyidzadə**